Diploma Programme
Programme du diplôme
Programa del Diploma

# Azerbaijani A: literature – Standard level – Paper 1
# Azerbaïdjanais A : littérature – Niveau moyen – Épreuve 1
# Azerí A: literatura – Nivel medio – Prueba 1

Wednesday 4 May 2016 (afternoon)
Mercredi 4 mai 2016 (après-midi)
Miércoles 4 de mayo de 2016 (tarde)

1 hour 30 minutes / 1 heure 30 minutes / 1 hora 30 minutos

---

**Instructions to candidates**

- Do not open this examination paper until instructed to do so.
- Write a guided literary analysis on one passage only. In your answer you must address both of the guiding questions provided.
- The maximum mark for this examination paper is **[20 marks]**.

**Instructions destinées aux candidats**

- N’ouvrez pas cette épreuve avant d’y être autorisé(e).
- Rédigez une analyse littéraire dirigée d’un seul des passages. Les deux questions d’orientation fournies doivent être traitées dans votre réponse.
- Le nombre maximum de points pour cette épreuve d’examen est de **[20 points]**.

**Instrucciones para los alumnos**

- No abra esta prueba hasta que se lo autoricen.
- Escriba un análisis literario guiado sobre un solo pasaje. Debe abordar las dos preguntas de orientación en su respuesta.
- La puntuación máxima para esta prueba de examen es **[20 puntos]**.

2216 – 0511

© International Baccalaureate Organization 2016

International Baccalaureate®
Baccalauréat International
Bachillerato Internacional

Mətnlərdən yalnız **birinə** ədəbi təhlil yazın. Cavabınızda verilən suallardan Ikisini də izah etməlisiniz.

**1.**

Konsertin başlanmasına az qalmışdı. Səhnəyə bitişik olan otağa bugünkü konsertin iştirakçıları toplaşmışdı. Onların çoxuna on altı-on yeddi yaş ancaq vermək olardı. Kimi müəlliminin yanında dayanıb son dəfə məsləhətə qulaq asır, kimi skripkasını, kimi tarını kökləyirdi. Hamı çox yavaş, bəzən pıçıltıya keçən bir səslə danışır, bacardığı qədər özünü soyuqqanlı göstərməyə çalışırdı. Lakin belə hallarda həyəcan həmişə süni soyuqqanlılığa üstün gəlir. Onlar həyəcanlanmaya bilməzdilər. Axı, bu gün onların ilk konserti idi! Tahir otağın səhnəyə açılan qapısı yanında stulda oturmuşdu. O, pianistlərə xas olan adətlə tez-tez əllərini dodaqlarına yaxınlaşdırıb nəfəsi ilə isidirdi. Əynindəki tünd qara rəngli kostyum dolu bədəninə tarım çəkilmiş kimi görünürdü. Ağ ipək köynəyinin yaxalığını səliqə ilə pencəyinin üstündən aşırmışdı. Sifətinin cizgiləri kobud olsa da cazibədar idi. Geniş alnındakı xırda qırışlar onu fikirli göstərirdi.

Onun görkəmi, çöhrəsində donub qalmış təbəssüm, qəlbində gizli bir hissin hökm sürdüyünü sübut edirdi. Bu gizli hissin adı nə qədər sadə və aydın idisə, o qədər də müdhiş idi. Dərd! Onun on altı yaşında nə dərdi ola bilərdi? İndiyədək şəhər onu şənləşdirmişdi. Ona elə gəlirdi ki, ömrü boyu pis gün görməyəcək, həmişə xoşbəxtliklə yaşayacaqdır. Həyatda rast gəldiyi hər şey onun nəzərində adi, təbii halında qalmır, böyüyür, gözəlləşir, hər bir şəxs isə onun üçün məharətli və namusu təcəssüm edən bir insana çevrilirdi. İndiyədək, on altı illik ucsuz-bucaqsız çəmənliklərdə sakit axan bir çaya bənzəyirdi. Bu çay nə bulanır, nə qayalarla çarpışır, nə də bir maneəyə rast gəlirdi. Lakin amansız dərd şəffaf suyun içinə düşən tünd bir mürəkkəb damlası tək onun həyatını bulandırırdı. Tahir əvvəlcə sarsılsa da, vaxt keçdikcə, dərdin də məhəbbət, sevinc kim çox təbii bir hiss olduğunu dərk etdi […] Tahir qalxıb yoldaşlarına baxdı. Onlar nə qədər xoşbəxt görünürdülər! Hamının fikri yalnız bir şeylə – konsertlə bağlı idi. Tahiri isə konsert bir o qədər düşündürmürdü. Onu düşündürən başqa aləm idi. Birdən kimsə onun qolundan dartdı. Bu, Tahirin məktəb yoldaşı, “Tarzən” ləqəbi ilə tanınan Həsən idi. Həsən ağ sədəflə bəzənmiş tarını cəld bir hərəkətlə yanındıkı qırmızı stolun üstünə qoyub Tahirə tərəf döndü. – Adə, Tahir […] Az qalır ürəyim partlasın, – deyə Tahiri qapıya tərəf çəkib pərdəni araladı, salona baxdı və davam etdi: – Bay atonnan, bir belə adamın qabağında çalmaq olar. Tahir Həsənin üzünə baxıb gülümsündü. Onun burnunu iki barmağı arasında sıxıb: – Qorxma, bakılı balası, – dedi, – sən zabilini çal, gör bir nə əl vuracaqlar. – Görək də. Həsən bir dəfə də “bay atonnan” deyib tarını götürdü, otağın o başına getdi. Tahir isə pərdəni aralayıb diqqətlə salonu nəzərdən keçirməyə başladı. Al-əlvan tavandan asılmış böyük çılçırağın gün işığı salonun mərmər sütunlarını ayna kimi parıldadırdı. Camaatın danışığı anlaşılmaz bir uğultu yaratmışdı. Oturanların çoxu Tahirə tanış idi. Budur, ikinci sırada Həsənin atası Bəkir dayı ilə anası Gülnaz xala oturublar. Onlar konsertə Həsənin kiçik bacısı Solmazı da gətiriblər. Bəkir dayı tez-tez saatına baxır, arvadına nə isə deyir, Gülnaz xala isə asta-asta başını tərpədirdi. İki sıra geridə yenə tanış adamlar oturublar. Bəkir dayı ilə Gülnaz xala kimi onlar da konsertin başlanmasını səbirsizliklə gözləyirlər. Bu gün konsertə gələnlərin çoxu ata-analar idi.

Yusif Səmədoğlu, *Güllər* (1956)

(a) Yuxarıdakı çıxarışdan əsas obrazlar və onların əhvalları barədə nə öyrəndiniz?

(b) Yazıçı hekayənin ekspozisiyasında təşbeh, metafora və simvollardan necə istifadə edir?

**2.**

**Saat Danişir**

Çıq, çıq, çıq!
Yatma, dur!
Ötən vaxt
Üzündə
Hörümçək torunu
toxuyur.
Çıq, çıq, çıq!
Qalxsana,
baxsana.
Göy açıq,
yər açıq,
yol açıq.
Yola çıx,
gül açıb.
Saçına düşür dən,
çıq,çıq,çıq!
Dünyanın çiynindən
ömrünü düşürdən
pillələr
çıq, çıq, çıq.
ömrünə vurulan
sillələr
çıq, çıq, çıq.
güllələr
çıq, çıq, çıq
zamanam,
O göydən ağıram,
bu yərdən ağıram,
sübhəcən üzünə,
gözünə
yağıram,
döyürəm.
deyirəm.
“çıq, çıq, çıq”
Yuxuda yatanda
sən ruhu zəncirli
bir qulsan,

əl açıq,
qol açıq,
yol açıq,
yola çıx,
yol açıq.
çıq, çıq, çıq.

Fikrət Qoca, *Seçilmiş əsərləri (I Cild)* (2015)

(a) Şerdə saatın rolunü şərh edin.

(b) Şerin inkişafinda şairin ritmdən istifadə etməyi şerin mənasına necə və nəye görə təsir edir?